mr.fix®
Yapı Kimyasalları

# mr.Flex White®

## Sement əsaslı, ağ rəngli, polimer qatqılı, elastik və yüksək performanslı, kafel, keramika və qranit yapışdırıcısı

Məhsul kodu: 10.20.007




### Məhsul haqqında

**mr.Flex white®** sement əsaslı, ağ rəngli, polimer qatqılı, məhsulun performansını və istifadə olunma qabiliyyətini artıran, kimyəvi qatqılı elastik kafel, keramika və qranit yapışdırıcısıdır.

**TS 11140 EN 12004 - C2T** sinifinə uyğundur.
C2 = əlavə xüsusiyyətləri inkişaf etdirilmiş sement əsaslı yapışdırıcıdır.
T = Sürüşmə xüsusiyyəti azaldılmışdır.

### İstifadə sahəsi

- Daxili və xarici məkanların divar və döşəmələrində (yerlərdə)
- Dekorativ kərpic, təbii qranit, qranit keranit, böyük ölçülü keramika, şüşə mozaika, traverten və örtük materiallarının yapıştırılmasında
- Böyük ölçülü örtüklərin yapıştırılmasında;
- Su hovuzlarında
- Yerdən isidilən yerlərdə, isitməli hovuzlarda, termal hovuzlarda
- Teras və balkonlarda
- Keramika üzerinə keramika yapışdırılmasında;
- Ani temperatur dəyişimlərinin olduğu yerlərdə
- Alçıplaka, alçı-suvaq, istilik izolyasiya plakaları, gazbeton kimi istilik dəğişiminə məruz qalan səthlərin mr.Astar® ilə astarlanmasından sonra
- Çoxlu sayda insan və yük gediş-gəlişinin olduğu yerlərdə
- Yüksək binların üzlük döşəmələrinin yapışdırılmasıda

### Üstünlükləri

- Asan hazırlanır və asan tətbiq olunur
- Şaquli tətbiq zamanı sürüşmə baş vermir
- İstifadə müddəti uzundur
- Yüksək yapışma xüsusiyyətinə malikdir
- Tempratur dəyişikliyi zamanı yaranan gərginliyə qarşı davamlıdır.
- Donma və ərimə nisbətinə dözümlüdür.

### Texniki göstəriciləri

| Materialın tərkibi | Mineral dolğular, sintetik qatqılar, toz polimer və xüsusi sement |
|---|---|
| Rəngi | Ağ rəngli toz |
| Yapışma müqaviməti | > 1,00 N/mm² (28 gün) |
| Açıq gözləmə müddəti | 25 dəq |
| İstifadə müddəti | 2 saat |
| Tamamlama müddəti | 3-5 dəq |
| Tətbiq ediləcək səthin istiliyi | +5°C +25°C |
| Xidmət istiliyi | -20°C +80°C |
| Dərz dolğu müddəti | 24 saat |
| İstifadəyə açma müddəti | 3 gün |
| Qarışığın sıxlığı | ~1,57 kq/lt |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### İstifadə təlimatı

Səthin hazırlanması;
Tətbiq sahəsinin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəiflədəcək bütün yağ, qatı sürtgü yağı və parafin qalıqlarından təmizlənməlidir. Səthdə artıq qırıntılar olmamalı və səth nəmə doymuş olmalıdır. Donmuş, əriyən və ya 24 saat ərzində donmaq təhlükəsi olan sahələrdə tətbiq olunmamalıdır. 5-20 mm dərinliyində olan boşluqlar iki gün əvvəlcədən mr.Tamir® ilə təmir edilməlidir. Tətbiq olunacaq səthin istiliyi +25°C-dən çoxdursa səth nəmləndiril-

məlidir. Əmici səthlər (alçıplaka, gazbeton, alçısıva, və b.) tətbiq öncəsi 2 qat mr.Astar® ilə astarlanmalıdır. Taxta səthlərə tətbiq




edilərkən öncə səth mr.Kontakt GP® ilə astarlanmalı, əgər taxta səthin nəmlənmə ehtimalı varsa, tətbiqdən öncə mr.Seal Superflex® iki qat və filəli olaraq taxda səthə tətbiq edilməlidir.

## Hazırlanması

İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr.Flex White® yavaş- yavaş əlavə edilərək 400- 600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, topaqlar həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

## Qarışdırma nisbəti

| | |
|---|---|
| 1 kq toz üçün | ~ 0,28 litr su |
| 20 kq toz üçün | ~ 5,60 litr su |

## Sərfiyyat

| Keramika | Daraq | İstifadə miqdarı |
|---|---|---|
| 10x10 sm | 6x6x6mm | Tək tərəfli yapışdırma 4 kq/m² |
| 10x10 sm ilə 20x20 sm | Daraq ölçüləri 8x8x8 mm | Tək tərəfli yapışdırma 5 kq/m² Cüt tərəfli yapışdırma 6 kq/m² |
| 20x20 sm ilə 30x40 sm | 10x10x10 mm | Cüt tərəfli yapışdırma 6,5-7 kq/m² |



və keramika ölçülərinə görə sərfiyyat miqdarları:

## Alətlərin təmizlənməsi

Tətbiqdən sonra istifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr.Flex white® bərkidikdən sonra ancaq mexaniki şəkildə səthdən təmizlənə bilər.

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlanma şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Tərkiblər dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 20 kq ±2%**